# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 298** **Bakı şəhəri, 13 iyul 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 468 nömrəli qərarı ilə təsdiq edilmiş "Reklam qurğularının yol kənarında yerləşdirilməsi Standartları"nda dəyişikliklər edilməsi haqqında**

"Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 755-VQD nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 31 iyul tarixli 1568 nömrəli Fərmanının 1.7-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 468 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1956) ilə təsdiq edilmiş "Reklam qurğularının yol kənarında yerləşdirilməsi Standartları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"Bu Standartların 2.1-ci bəndinin tələbləri nəzərə alınmaqla, ölçülərindən asılı olmayaraq reklam qurğularının tikintisi, quraşdırılması, onlarda konstruktiv dəyişikliklərin edilməsi Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin tələblərinə uyğun aparılmalıdır.".

**2.** 3.4-cü bənd üzrə:

2.1. birinci cümləsində "Reklam qurğularının yol kənarında quraşdırılması və onlara" sözləri "Reklam qurğularına" sözləri ilə əvəz edilsin, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü, 14-cü və 19-cu maddələrinin," sözləri çıxarılsın;

2.2. ikinci cümləsi çıxarılsın.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***